## Ehtiyyatlı olun - ştrixkodu düzgün çap etmək lazımdır!

Artıq 10 ildir ki, GS1 Azərbaycan Cəmiyyətin ofisində saxta və standartlara uyğun olmayan ştrixkodların sərgisi təşkil olunub. Şəhərimizin marketlərində aparılan reydlər nəticəsində məhsulların etiketlərinin üzərindəki ştrixkodların çap standarlarına riayət olunmaması faktları aşkar olunub. Bir daha nəzərinizə çatdırmaq istərdik ki, əmtəə məhsullarının üzərindəki ştrixkodların çapı yalnız beynəlxalq GS1 təşkilatı tərəfindən təsdiq olunmuş standartların tələblərinə uyğun olmalıdır. Ştrixkodun çapında standartlara riayət olunmaması, sonralar ticarət şəbəkələrində ştrixkodların skaner ilə oxunmasında problem yaradır.

Bu cür pozuntulara, misal üçün, ştrixkodun rənginin və kontrastlığının, ölçülərinin düzgün seçilməməsi, ştrixkodun «boş sahələrinin» olmamasını və s. səhvləri aid etmək olar.







Bəzi hallarda etiketin dizaynı hazırlanan zaman, bir əmtəəyə ayrılan unikal ştrixkod nömrəsini başqa növ məhsulların üzərində də istifadə edirlər və yaxud ştrixkodun zolaqlı hissəsinin skanerlə oxunmasından sonra müəyyən olunmuş və vizual oxunan rəqəmlər fərqlənirlər.






Misal üçün, bu etiketin üzərində bir ştrixkodun müxtəlif növ məhsullarda istifadə olunması üçün vurulub. Bu isə səhvdir, çünki GS1 sisteminin əsas prinsipi - hər məhsulun unikal ştrixkoda malik olunmasıdır. Yəni, qozlu, kişmişli, araxislı, keşnişli, badamlılı, nanəli noğulların bağlamalarının üzərində fərqli ştrixkodları olmalıdır.



Belə halların qarşısını almaq üçün GS1 Azərbaycan Cəmiyyəti yerli mətbəələrə vaxtaşırı məlumat məktubları göndərir. Məktubda ştrixkodların çapında səhvlərin qarşısının alınması üçün çap olunmuş ştrixkodlu etiketlərin siqnal nüsxəsini verifikasiya (çapın keyfiyətinin yoxlanması) edilməsi tövsiyyə olunur. Eyni zamanda qeyd edirik ki, ştrixkodların çapını sifariş verərkən, sifarişçi GS1Azərbaycan Əmtəə Depozitarisindən xüsusi formada «Çıxarış»-ı təqdim etməlidir. Yalnız bu «Çıxarış» məhsulun ştrixkod nömrələrinin düzgünlüyünü və istifadə hüququnun mövcudluğunu təsdiq edir. Bizim iradlarımız nəzərə alınsa və dizaynerlər öz işlərinə daha peşəkar yanaşsalar mətbəənin sifarişçilərlə problemləri azalacaq.

Ştrixkodun düzgün istifadə olunması qaydalarına riayət edin!